# “Qanlı Yanvardan istiqlala gedən yol”

**Dünən Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr olunmuş “Qanlı Yanvardan istiqlala gedən yol” mövzusunda elmi sessiya keçirilib.**





Tədbiri Muzeyinin baş direktoru akademik Rafael Hüseynov açaraq 20 Yanvarın müasir tariximizdə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qürur tarixi, qəhrəmanlıq səhifəsi olduğunu bildirib. O, çıxışında 20 Yanvar hadisələrinin elmi, siyasi, tarixi və fəlsəfi mahiyyətindən bəhs edib. Bu faciənin xalqımızın azadlığı və müstəqilliyi yolunda böyük əhəmiyyət daşıdığını, Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tarixinə əbədi qəhrəmanlıq salnaməsi kimi daxil olduğunu vurğulayıb. Natiq bildirib ki, hər bir xalqın həyatında elə anlar var ki, onlar həlledicidir. 20 Yanvar faciəsi haqqında zaman keçdikcə düşünərkən onu da dərk edirsən ki, bu hadisə millətin düşüncəsində və Azərbaycanın həyatında həlledici dönüş nöqtəsi oldu. 20 Yanvar faciəsi təkcə xalqımızın deyil, bütövlükdə keçmiş Sovet İttifaqının gələcək taleyini müəyyən edən bir hadisəyə çevrildi.

Qeyd olundu ki, sovet hökumətinin məqsədi o idi ki, üzərinə tank sürdüyü, güllələbaran etdiyi insanların içində qorxu hissini yaratsın, onların imperiya qarşısında acizliyini sübuta yetirsin. Ancaq əksinə oldu, insanlar imperiyaya qarşı səslərini qaldırdılar və mübarizəyə qalxdılar. Xalqın mübarizə əzmini qırmaq üçün 20 Yanvar faciəsi törədildi, yüzlərlə günahsız insan qətlə yetirildi, yaralandı və həbs edildi, küçələr güllələbaran edildi. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Rafael Hüseynov ölkənin kütləvi informasiya vasitələrinin fəaliyyətinin dayandırıldığı, xalqın informasiya almaq hüququndan məhrum edildiyi bir dövrdə ulu öndər Heydər Əliyevin, eləcə də Azərbaycan ziyalılarının Qanlı Yanvar faciələri zamanı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində gördükləri işlərdən bəhs edib, dünyanın müxtəlif kütləvi informasiya vasitələrinə 20 Yanvar dəhşətləri ilə bağlı verdikləri müsahibələrdən söz açıb. Xatırladıb ki, bu qanlı hadisənin ertəsi günü xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyev özünün və ailəsinin həyatını təhlükəyə ataraq İlham Əliyevlə birlikdə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedərək mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləyib, qətliamın başvermə səbəblərini açıqlayıb, 20 Yanvar faciəsini bütün dünyaya bəyan edib.

Həmin dövrdə ədəbiyyatımızda 20 Yanvar və şəhidlər mövzusu ilə bağlı qələmə alınan nümunələrdən söz açan akademik bu əsərlər arasında Xalq şairi Bəxtiyar Vahabzadənin, yazıçı-publisist Rafiq Səməndərin və digərlərinin yaradıcılığının xüsusi məna daşıdığını söyləyib.

Çıxışının sonunda Rafael Hüseynov müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi ilə şəhidlərimizin qisasının alındığını, Qarabağda böyük quruculuq işlərinin aparıldığını və bu gün Azərbaycanın dünyada getdikcə daha yüksək mövqe tutduğunu söyləyib.

Elmi sessiyada muzeyin Komparativistika və bədii tərcümə şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli 20 Yanvar hadisələrindən, onun acı nəticələrindən söz açıb, həmin günlərlə bağlı xatirələrini bölüşüb.

Tədbirdə 20 Yanvar faciəsindən bəhs edən slayd nümayiş olunub.

***Qabil YUSİFOĞLU, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 18 yanvar.- S.4.